# Regionların inkişafı iqtisadi potensialın gücləndirilməsində əsas amildir



*Ötən əsrin sonlarında ikinci dəfə hakimiyyətə qayıdan dahi lider Heydər Əliyev dövlət quruculuğu sahəsində əsaslı islahatlar aparmaqla bərabər, iqtisadi cəhətdən geridə qalmış respublikanın hərtərəfli inkişafı istiqamətində də böyük işlər gördü. Zəngin təbii ehtiyatlara sahib olan ölkəmizin yeraltı-yerüstü sərvətlərindən xalqın, dövlətin maraqlarına uyğun istifadə olunması məqsədilə irimiqyaslı layihələr reallaşdırıldı.*

## *Prezident İlham Əliyev 2004-cü il fevralın 11-də Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Fərman imzalayıb*

Ulu öndərin düşünülmüş siyasəti, eyni zamanda şəxsi nüfuzu sayəsində qısa müddət ərzində xarici ölkələrin iş adamları, nüfuzlu şirkətlər ölkəmizə böyük həcmli investisiyalar yatırdılar. İqtisadi islahatlar makroiqtisadi sabitliyin bərqərar olmasına, iqtisadiyyatın dinamik inkişafına güclü təkan verdi ki, bu da ölkə vətəndaşlarının rifahının yaxşılaşdırılmasına imkan yaratdı. Sosial-iqtisadi inkişafın yeni mərhələsi, yüksəliş dövrü başladı. İqtisadi böhran aradan qalxdı, bazar iqtisadiyyatına keçid tənzimləndi. Uğurlu neft strategiyası həyata keçirən Azərbaycan bu sahədə əldə olunan gəlirləri qeyri-neft sektoruna yönəltməklə gündən-günə inkişaf edən, güclü iqtisadiyyata, demokratik əsaslara malik ölkəyə çevrildi.

2003-cü ildə Prezident seçkiləri ərəfəsində cənab İlham Əliyev bildirmişdir ki, xalq etimad göstərib məni prezident seçərsə, regionların sosial-iqtisadi inkişafı xüsusi diqqətdə saxlanılacaq, bu sahədə Dövlət proqramları qəbul ediləcək. Dövlət başçısı ölkə rəhbərliyinə gəldiyi ilk günlərdən bu istiqamətdə böyük islahatlar başlandı, respublikamızın bölgələrində mövcud problemlərin həlli ön plana çəkildi. Regionların sosial-iqtisadi inkişafı dövlət siyasətinin prioritetlərindən biri elan edildi. Müstəqilliyimizin bərpasının ilk illərində ikinci dəfə hakimiyyətə qayıdan ulu öndərin rəhbərliyi ilə görülən işlər, reallaşdırılan irimiqyaslı layihələr daha da şaxələndirildi.

**(davamı 4-cü səhifədə)**

# Regionların inkişafı iqtisadi potensialın gücləndirilməsində əsas amildir

## *Prezident İlham Əliyev 2004-cü il fevralın 11-də Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Fərman imzalayıb*

**(əvvəli 1-ci səhifədə)**

Respublika, region, eyni zamanda beynəlxalq əhəmiyyətli təşəbbüslər irəli sürüldü və uğurla icra olundu. Bölgələrdə sahibkarlığın inkişafı, rayonların təbii və iqtisadi potensialından səmərəli istifadə, əhalinin məşğulluğunun artırılması və bütün bunların fonunda yoxsulluq səviyyəsinin azaldılması həlli vacib mühüm məsələ kimi qarşıya qoyuldu. Prezident İlham Əliyev 2004-cü il fevralın 11-də Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Fərman imzaladı. Fərmanda deyilirdi: "...Azərbaycan Respublikasında regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədi ilə qərara alıram: Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) təsdiq edilsin". 2004-2008-ci illəri əhatə edən beşillik proqramda iqtisadiyyatın ayrı-ayrı sahələrini inkişaf etdirmək, istehsalı şaxələndirmək, ixracyönümlü məhsul istehsalını stimullaşdırmaq, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşması üçün yerli sahibkarlığa geniş imkanlar yaratmaq, məşğulluğun səviyyəsini artırmaq və bütün bunların fonunda ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaq əsas məqsəd olaraq müəyyənləşdirildi.

Qısa müddət ərzində ölkə başçısının müvafiq Fərmanından irəli gələn vəzifələrin, qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi istiqamətində mühüm işlərə başlanıldı. İqtisadiyyatın bütün qollarının, o cümlədən qeyri-neft sektorunun dinamik inkişafına, əhalinin iqtisadi və sosial tələbatlarının qarşılanmasına, iqtisadi təhlükəsizliyin təmin olunmasına yönəldilmiş dövlət əhəmiyyətli layihələrə start verildi. Regionların iqtisadi inkişafında mövcud olan kəskin fərqin aradan qaldırılması, bölgələrin iqtisadi gücünün artırılması, regional tarazlığın əldə olunması və sosial problemlərin həlli istiqamətində atılan mühüm addımlar qısa zamanda müsbət nəticələr verdi. Proqramda nəzərdə tutulan vəzifələrin icrası ilə rayonların sosial-iqtisadi inkişafında dönüş yarandı və özünü qabarıq şəkildə göstərdi. Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində özəl sektorun inkişafı sürətləndi, əhalinin məşğulluğu artdı, ölkədə yoxsulluq səviyyəsi nəzərəçarpacaq dərəcədə aşağı düşdü. Regionlarda şəhər, qəsəbə və kəndlərin siması tədricən dəyişdi, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyəti yaxşılaşdı, əlverişli biznes və investisiya mühiti əhalinin güzəranının yaxşılaşmasına geniş imkanlar yaratdı.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" ölkənin bütün regionlarında, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz, Şamaxı, Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi, Lənkəran şəhəri, Astara, Lerik, Masallı, Yardımlı, Ağdam, Bərdə, Tərtər və digər rayonlarda uğurla həyata keçirildi. 2005-ci ildə cənub bölgəsində on kiçik stansiya tikildi, 2006-cı ildə isə respublikamızın digər rayonlarında əlavə 40 kiçik elektrik stansiyasının quraşdırılması nəticəsində qış aylarında rayonlarda enerji qıtlığı maksimum dərəcədə aradan götürüldü. Eyni zamanda əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün minimum əməkhaqqı və pensiyaların məbləğinin artırılması bu istiqamətdə atılan mühüm addım oldu.

Regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramı ölkəmizin gələcək inkişafında mühüm rol oynadı. 2005-ci il mayın 4-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən sosial-iqtisadi inkişaf məsələlərinə həsr olunmuş müşavirədə dövlət başçısı demişdir: "Artıq bir ildən çoxdur, regionların sosial-iqtisadi inkişafı məsələlərinə çox diqqətlə yanaşılır və bir il ərzində görülmüş işlər deməyə əsas verir ki, istiqamət düzgün seçilmişdir. Regionlarda gedən quruculuq və abadlıq işləri, yeni müəssisələrin, fabriklərin yaranması, fərdi tikintinin geniş vüsət alması və əlbəttə, 200 mindən artıq yeni iş yerinin açılması bir daha onu göstərir ki, regionların inkişaf proqramı öz funksiyasını yerinə yetirir. Bildiyiniz kimi, mən mütəmadi qaydada bölgələrə, rayonlara səfərlər edirəm və özüm şəxsən vəziyyətlə tanış oluram. Əlbəttə ki, problemlər çoxdur. Onları heç kim inkar etmir. Bizim vəzifəmiz də məhz odur ki, bütün bu problemləri operativ qaydada və yüksək səviyyədə aradan götürək".

Dövlət başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli Fərmanına uyğun olaraq hazırlanan "2004-2008-ci illər üçün Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" çərçivəsində respublikada 600 min iş yeri açıldı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi ilə respublikamıza xarici ölkələrdən böyük valyuta axını başladı ki, bu da ölkə iqtisadiyyatını sözün əsl mənasında dirçəltdi, beş il ərzində həyata keçirilən layihələr, genişmiqyaslı işlər ölkəmizin hərtərəfli, dayanıqlı və davamlı inkişafına geniş imkanlar açdı. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verildi. Həmin il, noyabr 21-də Gürcüstanın Marabda kəndində Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin tikintisinin təməli qoyuldu. Birinci proqramdan sonra 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən Dövlət proqramları və regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələr uğurla yerinə yetirildi. 2003-2019-cu illər ərzində sənaye istehsalının 2,7, kənd təsərrüfatının 2, xarici ticarət dövriyyəsinin 6,4, ixracın 7,6, qeyri-neft ixracının 5,2, valyuta ehtiyatlarının 27 dəfə artımı ölkəmizdə neftdən gələn gəlirlərin dövlətin və xalqın maraqlarına uyğun ədalətli şəkildə bölünməsinin göstəricisidir. 16 il ərzində orta əməkhaqqı 11, orta pensiya 8 dəfə artdı, 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verildi. Prezidentin Fərman və sərəncamları ilə təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin aşağı düşməsinə təkan verdi. Ulu öndər Heydər Əliyev tərəfindən başlanmış iqtisadi islahatların uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan dinamik inkişaf yolu ilə irəliləyən, iqtisadi artım baxımından dünyada lider ölkələrdən birinə çevrilib.



**Mehparə ƏLİYEVA,**
**"Respublika".**